# Gəncədə gənclərin fəaliyyətinə geniş imkanlar yaradılmışdır

Azərbaycanda gənclərin hərtərəfli inkişafı istiqamətində genişmiqyaslı işlər aparılır. Gənclərin inkişafını və asudə vaxtını səmərəli təşkil etmək, məlumatlandırma, yönəltmə və sosial dəstəyi təmin etmək üçün respublikanın şəhər və rayonlarında yetərincə sosial xidmət müəssisəsi - gənclər evləri (mərkəzləri) gənclərin istifadəsinə verilmiş, gənclərin təşkilatlanması üçün zəruri iqtisadi, hüquqi və təşkilati imkanlar yaradılmışdır. Prezident İlham Əliyevin 26 yanvar 2015-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası” da dövlət gənclər siyasətinin yeni mərhələyə qədəm qoyduğunu bir daha göstərdi. Strategiyanın məqsədi 2015-2025-ci illərdə Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan Azərbaycan Respublikasının mənafeləri naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır.

Bu gün gənclər sosial-iqtisadi inkişafın aparıcı qüvvələrindən biri, cəmiyyətin islahatları hərəkətə gətirən zümrəsi, ölkənin aparıcı siması, bu günümüz və gələcəyimiz hesab olunurlar. Gənclər ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar. Müasir Azərbaycan gəncliyi tarixi kökdən gələn milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan miras qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadırlar.

Təbii ki, bu uğurların, Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi Türk dünyasının fenomeni, ulu öndər Heydər Əliyevin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir.



Ölkənin hər yerində olduğu kimi qədimliklə müasirliyin vəhdətində çiçəklənən Gəncə şəhərində də gənclərin səmərəli fəaliyyəti üçün yeni infrastrukturlar yaradılıb, asudə vaxtlarının maraqlı keçməsi üçün möhtəşəm parklar salınmış, iri sosial-mədəni obyektlər istifadəyə verilmiş, yeni layihələr həyata keçirilmişdir. Ölkədə ilk dəfə olaraq, məhz 2012-ci ildə Azərbaycanın Gənclər Paytaxtı adına Gəncə şəhəri layiq görülmüşdür. Yerli və beynəlxalq tədbirlərə ev sahibliyi edən şəhər “Avropa Gənclər Forumu”nun qoyduğu tələblərə cavab verərərək 2016-cı ilin Avropa Gənclər Paytaxtı seçilib. Bu da şəhərdə gənclərə yaradılan böyük imkanlardan xəbər verir. Gəncənin inkişafı, infrastrukturu, gənclərin fəaliyyəti, onların asudə vaxtının səmərəli təşkilinin yüksək səviyyədə aparılması qədim şəhərin Avropa Gənclər Paytaxtı seçilməsinə zəmin yaratmışdır. Bu təkcə Gəncə gəncləri üçün deyil, ölkə gənclərinə də geniş imkanlar açıb. Ölkənin bütün gənclər təşkilatları il ərzində öz layihələrini məhz Gəncə şəhərində həyata keçirir, qarşılıqlı fikir mübadiləsi aparırlar. Layihə çərçivəsində avropalı gəncləri də Gəncəyə səfər edir, qədim şəhər və ümumilikdə ölkəmiz barədə dolğun məlumata sahib olur, yaradılan infrastruktur, maddi-mədəniyyət və tarixi abidələrimizlə yaxından tanış olurlar. Bu da qədim Gəncə şəhərini və onun timsalında ölkəmizi daha yaxından tanıtmaq, Azərbaycanla bağlı həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmaq üçün əlverişli imkan yaradır. Mədəni inkişafın, ictimai fəallığın və siyasi proseslərin paytaxtına çevrilən Gəncənin gəncləri də öz növbəsində bu prosesdə fəal iştirak edirlər. Gəncə ölkə və qitə gənclərinin ən çox üz tutduğu, layihələrin həyata keçirildiyi məkana çevrilib. Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin həyata keçirdiyi gənclər siyasəti Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən də uğurla icra olunur. Müxtəlif ümumşəhər xarakterli təşəbbüslərin həyata keçirilməsində oynadığı rola, gənclərlə apardığı işin nəticəsinə və Gəncənin 2016-cı ilin “Avropa Gənclər Paytaxtı” seçilməsindəki xidmətlərinə görə “The Buisness Year” şirkətinin ekspertləri tərəfindən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı “İlin birincisi” mükafatına layiq görülmüşdür.

Şəhərin gənclər sahəsində çalışan təhsil müəssisələrində - 3 universitetində, kolleclər və peşə məktəblərində konkret addımlar atılaraq perspektivli gənclərin sağlam mühiti formalaşmışdır. Geniş abadlıq-quruculuq işlərinin, sürətli inkişafın fövqündə gənclərə öz potensiallarını göstərmək imkanı yaradılmışdır. Şəhər son 6 ayda “Danışan kitablar” festival sərgisinə, “Region gənclərinin inkişafına dəstək”, “Gəncə-2016 - Gənc sahibkarların investisiya” adlı forumlara, Avropa Gənclər Paytaxtları Şəbəkəsinin görüşlərinə, “100 faiz Gənclər Şəhəri” layihəsinə, “Yaşıl iqtisadiyyatın inkişafında gənclərin rolu və perspektivləri” mövzusunda beynəlxalq elmi-praktik konfransa, Avropanın 11 ölkəsini təmsil edən səfirliklərin iştirakı ilə “Avropa şəhərciyi” layihəsinə yüksək səviyyədə ev sahibliyi edib. 6 min gəncin iştirakı ilə şəhərin Heydər Əliyev meydanında “Gəncə Avropa Gənclər Paytaxtı 2016” layihəsinin loqosunu təsvir edən fləşmob keçirilib. Gənclər və İdman Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin birgə təşkilatçılığı ilə “Tarixin canlı səhifələri” adlı IV Gənclər festivalı Gəncədə böyük ruh yüksəkliyi ilə qarşılanmışdır.

Gənclərə asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Belə ki, şəhərdə gəzməyə, görməyə o qədər yer var ki, bəzən onları seçməkdə qərarsız qalırsan Gəncəçayın sahilində salınan Park-Bulvar kompleksi, Bayraq meydanı, “Əli və Nino” kompleksi, “Gənclər evi” Mətbuat evi, Kitab evi, kinoteatr, atraksionlar... Bir-birindən gözəl, əyləncəli obyektlər şəhər gənclərinin və qonaqların xidmətindədir. İdman sahəsində də gəncəli idmançılarının adları ön sıralarda çəkilir. Azərbaycana ilk Olimpiya qızıl medalının məhz Gəncə idmançısı Toğrul Əsgərovun qazandırması buna sübutdur. Son 6 ayı ərzində 350-dən çox idmançımız 22 Respublika, 5 Beynəlxalq, 3 Avropa yarışlarında idmançımız iştirak edib və 32 qızıl, 28 gümüş, 24 bürünc medalı Gəncəyə gətiriblər.

Göründüyü kimi, bu gün Gəncədə gənclərin fəaliyyətinə geniş imkanlar yaradılıb. Onlar bu imkanlardan, onlara göstərilən etimad və dəstəkdən layiqincə yararlanır, gələcəklərini təmin etmək, dövlətimizin mənafeyini etibarlı şəkildə müdafiə edən layiqli vətəndaş kimi formalaşmaq üçün ciddi iradə ilə çalışırlar.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**